Sahibkarlığın və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondu (SBİİYF)

# ƏZİZ GƏNCLƏR!

Sahibkarlığın və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondu (ABŞ Beynəlxalq Özəl Sahibkarlıq Mərkəzinin dəstəyi ilə) Sizlər üçün xüsusi iqtisadi seminarlar silsiləsi təşkil edir. Bu seminarlarda Siz aşağıdakı mövzularda biliklər əldə etmək imkanı qazanacaqsınız:

1) İqtisadi islahatların aparılması və islahatların iqtisadi inkişafda rolu;
2) İnstitusional inkişaf və institutların iqtisadi inkişaf üçün əhəmiyyəti;
3) Sahibkarlıq və innovasiyaların iqtisadi inkişafda rolu;
4) İnvestisiyaların iqtisadi inkişaf üçün əhəmiyyəti;
5) Ümumdünya Ticarət Təşkilatının prinsipləri. Bu təşkilata üzv olmaq Azərbaycan üçün nə üçün vacibdir;
6) Yaxşı idarəetmənin əsas prinsipləri;
7) Ədalətli rəqabət prinsipləri;
8) Azərbaycanda biznes nə deməkdir? Ölkəmizdə öz biznesinə başlamaq nə deməkdir? Azərbaycanda uğur qazanmaq üçün işə yenicə başlayan biznesmen mütləq nəyi bilməli və bacarmalıdır;
9) Biznes ideya, Biznes layihə və Biznes Plan;
10) Azərbaycanda gənclərin uğurlu biznes nümunələri.

Əgər siz bu seminarlarda iştirak etmək istəyirsinizsə, Sahibkarlığın və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fonduna müraciət edin: sbiiyf.edf@gmail.com və ya bagirov.sabit@gmail.com. Müraciətlər Fevralın 28-nə qədər qəbul edilir.

Seminarlar Azərbaycan dilində keçiriləcək. Hər seminar iki saat davam edəcək (çay, kofe fasiləsilə). Seminarlar Şənbə (saat 15:00 – 17:00) və Bazar (11:00 – 13:00) günləri keçiriləcək.

Bu seminarları bitirdikdən sonra Siz Beynəlxalq Özəl Sahibkarlıq Mərkəzinin (ABŞ) nəzdində İnkişaf İnstitutunun Sertifikatını alacaqsınız.

Seminarlar bitdikdən sonra Siz xüsusi treninqdə iştirak edə biləcəksiniz. Buradakı təlimlərin mövzüları bunlar olacaq: 1) Leadership; 2) Communication skills; 3) Verbal and written presentation skills; 4) Advocacy. Təlimlər İngilis dilində keçiriləcək (Azərbaycan dilinə tərcümə təmin ediləcək). Təlimçi xarici ekspert olacaq. Təlim iştirakçılarına müvafiq sertifikatlar veriləcək.

Seminar və təlim iştirakçıları müvafiq materiallarla təmin ediləcək. Seminar və təlimlərdə iştirak pulsuzdur.

Bu təlimlərdən sonra iştirakçılar üçün kiçik qrantlar müsabiqəsi elan ediləcək. Qaliblər müsabiqəyə təklif etdikləri layihələri həyata keçirmək üçün 400 – 1200 AZN arasında qrantlarla mükafatlandırılacaqlar.

Seminar iştirakçılarının seçim meyarları:

1. Yaşı: 25-ə qədər
2. Sosial statusu: tələbə, biznesmen, QHT işçisi, biznes struktur işçisi
3. Gənclər təşkilatlarında üzvlük: arzuolunandır, lakin mütləq deyil.